***Maya ABDULLAYEVA***
*ADPU-nun Ağcabədi Filialı*
*AMEA Folklor İnstitutu*
magamireqizi@gmail.com
*ORCİD: 0009-0002-6414-0064*
*https://doi.org/10.59849/2309-7922.2026.1.237*

# EPİK QƏHRƏMANLIQ VƏ HİYLƏGƏRLİK: "KOROĞLU" VƏ "DƏDƏ QORQUD" DASTANLARINDA TRİKSTER OBRAZLARI

**Xülasə**

Məqaləmizdə Azərbaycan xalq ədəbiyyatının iki mühüm epik abidəsi olan "Koroğlu" və "Dədə Qorqud" dastanlarında trikster arxetipinin təzahür formaları araşdırılır. Tədqiqatın əsas məqsədi bu dastanlarda rast gəlinən hiyləgər, qaydaları pozan, məzəli və ikili xarakterə malik obrazların mifoloji və folklor əsaslarını müəyyənləşdirmək, onların ideya-estetik funksiyalarını üzə çıxarmaqdır. Araşdırma zamanı müqayisəli metoddan istifadə edilərək, trikster obrazlarının qəhrəmanlıq modeli ilə münasibəti, sosial-tənqidi məzmunu və xalq dünyagörüşündə tutduğu yer təhlil edilir. Epik folklorda, xüsusilə dastanlarda təşəkkül tapmış trikster obrazlar xarakterinin zənginliyi ilə diqqət çəkir. Belə obrazlar ayrı-ayrı dastanlarda bənzər funksiya və atributlara malikdirlər. Bəzən də elə olur ki, bu obrazlar içərisində xarakterik xüsusiyyətləri ilə fərqlənən, fərdi xüsusiyyətləri ilə diqqət cəlb edən personajlara rast gəlinir. Bu obraz folklor mətnlərində müxtəlif funksiyalar daşıyır və fərqli-fərqli tiplərdə qarşımıza çıxır. Azərbaycan dastanlarında trikster obrazları, adətən, açıq şəkildə, birbaşa deyil, dolayı yolla təqdim olunur. Bu triksterlər xalqın ən müqəddəs bildiklərinin, klassik qəhrəmanlarının ikinci tərəfi kimi göstərilir. Xalq öz qəhrəmanını həm mənfi həm müsbət cəhətləri ilə müqəddəsləşdirir.

**Açar sözlər**: Folklor, epik qəhrəman, dastan, obraz, trikster, hiyləgər

***Maya ABDULLAYEVA***

## EPIC HEROISM AND CUNNING: TRICKSTER FIGURES IN THE EPICS OF "KOROĞLU" AND "DEDE GORGUD"

**Summary**

This article examines the manifestations of the trickster archetype in two major epic monuments of Azerbaijani folk literature – the epics "Koroghlu" and "The Book of Dede Korkut". The main objective of the study is to identify the mythological and folkloric foundations of cunning, rule-breaking, humorous, and dual-natured characters encountered in these epics, as well as to reveal their ideological and aesthetic functions. Using a comparative method, the research analyzes the relationship between trickster figures and the heroic model, their social-critical content, and their place in the folk worldview.

Trickster figures that have taken shape within epic folklore, particularly in dastans, stand out for the richness of their characterization and their functional diversity. While such figures possess similar functions and attributes across different epics, there are also characters distinguished by individual traits and unique personal features. Trickster figures perform various functions in folkloric texts and appear in multiple typological forms. In Azerbaijani epics, these characters are usually presented indirectly rather than explicitly. Tricksters often function as the "second side" of classical heroes regarded as sacred by the people; thus, the folk tradition sacralizes the hero in both his positive and negative aspects.

**Keywords:** folklore, epic hero, dastan, character, trickster, trickery

***Майя АБДУЛЛАЕВА***

**ЭПИЧЕСКИЙ ГЕРОИЗМ И ЛОВКОСТЬ: ОБРАЗЫ ТРИКСТЕРА В ЭПОСАХ «КОРОГЛУ» И «ДЕДЕ ГОРГУД»**

**Резюме**

В статье исследуются формы проявления архетипа трикстера в двух важных эпических памятниках азербайджанского народного творчества дастанах «Кёроглу» и «Китаби Деде Горгуд». Основная цель исследования заключается в выявлении мифологических и фольклорных основ хитроумных, нарушающих установленные нормы, комических и двойственных по характеру образов, а также в раскрытии их идейно-эстетических функций. В ходе исследования с применением сравнительного метода анализируется соотношение образов трикстера с героической моделью, их социально-критическое содержание и место в народном мировоззрении.

Образы трикстера, сформировавшиеся в эпическом фольклоре, в особенности в дастанах, привлекают внимание богатством характеров и функциональной многогранностью. Подобные персонажи в разных дастанах обладают схожими функциями и атрибутами, однако наряду с этим встречаются и образы, отличающиеся индивидуальными чертами и оригинальными характерологическими особенностями. Образы трикстера выполняют в фольклорных текстах различные функции и представлены в разнообразных типологических формах. В азербайджанских дастанах трикстеры, как правило, изображаются не прямо и открыто, а опосредованно. Они выступают как «вторая сторона» классических героев, считающихся народом священными; при этом народ сакрализует своего героя как в его положительных, так и в отрицательных проявлениях.

**Ключевые слова:** Фольклор, эпический герой, дастан, образ, трикстер, хитрец

Dastanlar milli folklorun ən zəngin tərkib hissəsi olmaqla hər bir xalqın milli yaddaşını, dünyagörüşünü və sosial-psixoloji təcrübəsini özündə əks etdirən mühüm ədəbi-mədəni hadisədir. Epik folklorda xüsusilə dastanlarda təşəkkül

tapmış trikster obrazlar xarakterinin zənginliyi ilə diqqət çəkir. Belə obrazlar ayrı-ayrı dastanlarda bənzər funksiya və atributlara malikdirlər. Bəzən də elə olur ki, bu obrazlar içərisində xarakterik xüsusiyyətləri ilə fərqlənən, fərdi xüsusiyyətləri ilə diqqət cəlb edən personajlara rast gəlinir. Bu obraz folklor mətnlərində müxtəlif funksiyalar daşıyır və fərqli-fərqli tiplərdə qarşımıza çıxır. Azərbaycan dastanlarında trikster obrazlar adətən açıq şəkildə, birbaşa deyil, dolayı yolla təqdim olunur. Bu triksterlər xalqın ən müqəddəs bildiklərinin, klassik qəhrəmanlarının ikinci tərəfi kimi göstərilir. Xalq öz qəhrəmanını həm mənfi həm müsbət cəhətləri ilə müqəddəsləşdirir. Onların ikinci tərəfindən sosial nizamı, ədaləti bərpa etmək üçün istifadə edir. Folklorda istifadə edilən trikster arxetiplər ikili xarakterin qovuşması mənfi ilə müsbət cəhətlərin vahid varlıqda cəmlənməsi kimi xarakterizə edilir. R.Qafarlının da göstərdiyi kimi, bu arxetiplərin yaradılmasının çox qədim və tarixi kökləri vardır: "Beləliklə, arxetiplər (ilk yaradılanlar) – universal mifoloji motiv və süjetlərin ilkin obrazları, isveçrəli psixoanalitik K.Q.Yunqun təliminə görə, kollektivin qeyri-şüuri əhatəsində öz-özünə doğulmuş, təkcə kortəbii yaranış formalarında (yuxu və b. ona oxşar formalarda) yaşamamış, həm də mif xidmət etmişdir. Ona görə də dünyanın reallıqlarından çox, toplumun psixi xassəsini və halını əks etdirmişdir. Bu səbəbdən də ilkin çağlarda ikili xüsusiyyətin (animus-anima/kişi-qadın, insan-heyvan/kentavrlar kimi) bir canda birləşməsinə – dualizmə inam yaranmışdır. Məsələn, "Munisnamə"də mifik dünya qatlarının keçidində duran mələk (başı öküz, bədəni qoyun) iki müxtəlif heyvanın orqanlarından yaranmışdı. "Avesta"da Xeyir və Şər allahlarını dünyaya gətirən zaman və tale allahı Zurvan isə təbiətən ikicinsli (kişi-qadın) idi. Xalq arasında bu gün də işlənən "Xeyirlə-şər əkizdir" məsəlini həmin təsəvvürün qalığı kimi də başa düşmək olar" [7, s. 213].

Bu obrazlar xalqın sosial narazılıqlarını, ədalətsizliyə qarşı münasibətini simvolik şəkildə ifadə edir. Trikster obrazlarının ən yaxşı nümunələrini elə xalq dastanlarımızda görə bilərik. "Dədə Qorqud" eposunda Salur Qazan, Bamsı Beyrək, Dəli Domrul, Qaraca Çoban, Basat, həmçinin "Koroğl"u dastanında Koroğlu, Həmzə, Eyvaz, Nigar xanım, Qır at, Dür at və s.

Xalq dastanlarımızda trikster obrazlar çox vaxt gücə və güclüyə qarşı ağıl və hiylə işlətməklə, birbaşa döyüşmək, düzgün mübarizə yerinə, hiyləyə əl atmaqla pozulan qaydaları düzəltməyə və ya onları yenidən yazmağa çalışan surətlərdir. Bu obrazlar M.Kazımoğlunun təbirincə desək, ümumi "dəli" adı altında səciyyələnən "nataraz" obrazlardır: "Qəhrəmanlıq dastanlarında komizmə əlverişli zəmin yaradan həm də dəli obrazıdır. "Dədə Qorqud" və "Koroğlu" eposlarının hər ikisi üçün səciyyəvi olan bu obraz lətifə, nağıl, rəvayət və b. janrlarda rast gəldiyimiz nataraz adam obrazı ilə yaxından səsləşir. Eposdakı dəli obrazı da qayda-qanuna məhəl qoymamağı, davranış normalarından kənara çıxması ilə fərqlənir. Qeyri-adi hərəkətləri ilə başqalarından fərqlənən "Dədə Qorqud" və "Koroğlu" dəliləri, bir tərəfdən, bahadır kimi, digər tərəfdən isə nataraz adamlar kimi diqqəti

cəlb edir və bu natarazlıq eposda yarı-ciddi, yarı-zarafat səhnələrin meydana çıxmasına səbəb olur" [1, s. 170].

**Tədqiqat**

*1. "Kitabi-Dədə Qorqud"da trikster elementləri.*

"Kitabi-Dədə Qorqud" dastanında trikster obrazları ayrıca bir obraz kimi yox, bir neçə obrazın tipik *davranış modeli* kimi ortaya çıxır. Məsələn, Dədə Qorqudun özü ustad, müdrik ağsaqqal, yolgöstərən, ad verən, sakral tərəfləri ilə bərabər, paradoksal hərəkətləri, hiyləgər tərəfləri və ironik davranışları ilə trikster funksiyası daşıyır. Dəli Qarcarı ram etmək üçün Dədə Qorqud asanlıqla ona kələk gəlir, hiylə işlədir. Ondan bacısının Beyrəyə xeyir duasını vermək qarşılığında gözəgəlimli birələr tələb edən Dəli Qarcara belə dərs verir: "Dədə Qorqud ... Dəli Qarcarı bir birəli yerə gətirdi. Dəli Qarcarı yalınçıq eylədi, ağıla qoydu. Birələr Dəli Qarcara düşdülər. Gördü bacara bilməz aydır: "Mədəd Dədə! Kərəm eylə Allah eşqinə! Qapıyı aç çıqayın!"" [2, s. 57].

Salur Qazan dastanda əksər boylarda Bayandur xandan sonra ən sayılıb-seçilən, Oğuz elinin qoruyucusu, haqqın keşiyində duran igidi kimi təsvir edilsə də, müxtəlif boylarda biz onun illərlə daşlaşmış Oğuz qaydalarına qarşı çıxdığını, o qaydaları pozaraq əsl trikster kimi davrandığının şahidi oluruq. Məhz bu barədə S.Rzasoy yazır ki, Salur Qazan bilə-bilə, məqsədli şəkildə Oğuz elinin Oğuz Kağandan qalan qanunlarını pozur və əvəzində öz qanunlarını, daha dəqiq desək, içoğuzların mənafeyinə xidmət edən qanunlar qoyur. Qazanın bu antistruktur davranışları yalnız on ikinci boyla məhdudlaşmır. Bütün dastan boyunca onun Oğuz qanunlarına (törəyə) uyğun gəlməyən haqsız-ədalətsiz davranışlarına şahid oluruq [9, s. 34].

"Dastanın ikinci boyunda bəylərlə içib sərxoş olmuş Salur Qazan onlara daha çox əylənmək üçün ova getməyi təklif edir. Gənc Oğuz bəyləri (Dəli Dondaz, Qarabudaq) dərhal bu təklifə razı olurlar. Lakin sərxoş bəylərin məsləhət-məşvərət etmədən ova getməklərinin təhlükəli olduğunu bilən Alp Aruz bacısı oğlu Qazana "sası dinlü" Gürcüstanla sərhəddə yerləşdiklərini xatırladıb, ordusunun üzərində kimi qoyacağını soruşur. Qazan 300 igidlə heç bir təcrübəsi olmayan oğlu Uruzu ordunun, evinin üzərində qoyur" [4, s. 42].

Yaxud Basatın Təpəgözü məğlub etməsi fiziki gücdən çox ağıl və hiyləyə əsaslanır ki, bu da trikster arxetipinə uyğundur. S.Qarayevin qənaətlərinə əsasən söyləmək olar ki, Basatın Təpəgözü məğlub edə bilməsinin başlıca səbəbi onların genetik köklərinin eyni olmasıdır. "Amma Təpəgöz və Basat öz heyvani, xtonik təbiətlərinə görə qohumdurlar: eyni koddadırlar. Yəni Təpəgözün hansı vəziyyətdə olmasından asılı olmayaraq, Basat mənşə yaxınlığı ilə əlaqədar olaraq onu tanıyır. Basatın, Təpəgöz yatarkən onun gözünü çıxartması estetik laya görə namərdlik kimi görünsə də, mifoloji düşüncəyə görə bu, Təpəgözü zərərsizləşdirməyin yeganə yolu idi. Bununla da Təpəgöz kosmik nizama müdaxilə etmə vasitəsindən,

yəni gözdən məhrum edilir. Basat Təpəgözü yatdığı yerdə, başqa sözlə, canı üstündə olmadıqda gözdən məhrum edir" [8, s.187].

Bundan əlavə, Basatın trikster təbiəti "Kitabi-Dədə Qorqud" dastanının sonuncu boyunda yenidən ortaya çıxır. Əvvəlki boylarda igidliyi, xalqın xilaskarı kimi görünən Basat bu boyda el-obanı talayan, namərd obraz kimi təsvir olunur:

"Yigitlərim, Aruz oğlu Basat gəlmədin,
Elim-günüm çapılmadın,
Qaytabanda dəvələrim bozlatmadın,
Qaraqucda Qazlıq atın kişnətmədin,
Ağca qoyunlarım mənrişmədin,
Ağca yüzlü qızım-gəlünüm əkşəşmədin,
Ağca yüzlü görklimi Aruz oğlı Basat gəlüb almadın,
Elim-günim çapmadın, Qazan mana yetişsün,
Mənim qanım Aruza qomasun.
Ağca yüzlü görklümü oğlına alı versün.
Axirət həqqini həlal etsün.
Beyrək padşahlar padşahı həqqə vasil oldu, bəllü bilsün! – dedi [3, s. 183].

Dastanın əvvəllərində igidliyi ilə ad çıxaran, müsbət qəhrəman kimi tanınan, Salur qazana ən çətin döyüşlərdə arxa-dayaq olan dayısı Alp Aruzun dastan süjeti inkişaf etdikcə dönüklük etdiyinin mənfi tərəflərinin ortaya çıxdığının şahidi oluruq. Alp Aruz tədricən öz hiyləli tərəflərini işə salır Qalın oğuz bəylərini öz tərəfinə çəkir, sarsılmaz oğuz birliyinə zərbə endirir. Salur Qazana ağır zərbə vurmaq, onu zəiflətmək niyyətilə Qazanın ən yaxın silahdaşı Beyrəyi öz tərəfinə çəkməyə çalışır, planının pozulduğunu görəndə Beyrəyi aradan götürür, bir namərd kimi onu arxadan vurur. Dastanda Beyrəyin dilindən Alp Aruz belə təqdim edilir:

"Qavat, mən bu işi duysam, sana böylə gəlirmiydim?
Aldayıban ər tutmaq övrət işidir,
Övrətindənmi öyrəndin sən bu işi, qavat?!" [2, s. 10]

Qaraca Çoban güclü qüdrətli olması ilə Oğuz igidlərindən geri qalmır, bununla bərabər yeri gəldikcə hiyləli davranışları ilə Salur Qazanın inadını qırmağı bacarır. Bəzən də düşdüyü situasiyadan alnıaçıq, üzüağ çıxmaq üçün dəli Çoban həddindən artıq ağıllı və təmkinli olmağı bacarır. Beləliklə, Qaraca çoban triksterdir və onun hər iki kompleksinin "ağıllılıq və dəlilik" daşıyıcısıdır. Qazan xandan "kafirə varmaq" icazəsəni ala bilməyib, əvəzində Qazan xan tərəfindən köklü bir ağaca sarınan və özünün dəli gücü ilə ağacı yerindən qoparan Qaraca Çoban nəhayətdə hiylə işlədir: "Qazan baxdı gördi, çoban ağacı arxasına almış gəlir. Qazan aydır: – Mərə Çoban bu ağac nə ağacdır?

Çoban aydır: – Ağam Qazan, bu ağac o ağacdır kim, sən kafiri basarsan qarnın acığır, mən sana bu ağacla yemək bişürərim, – dedi. Bu söz Qazana xoş gəldi. Atdan endi, Çobanın əllərini çözdü, alnından bir öpdü" [2, s. 49].

Dastanda böyüyə hörmət, ata anaya sədaqət timsalı olan hətta onların yaşaması və şərəfinin qorunması üçün canından belə keçməyə hazır olan Uruz başqa bir boyda onu tənbeh edən atasının üzünə ağ olur, onu tənqid edərək özünün ikinci – mənfi trikster tərəfini ortaya qoyur: "Dəvəcə böyümüşsən, köşəkçə ağlın yox, təpəcə böyümüşsən, darıca beynin yox"" [2, s. 66].

M.Kazımoğlunun da dediyi kimi, müsəlmanlığın ən adi qayda-qanunlarından xəbərdar olan hər hansı bir şəxs Əzrayılın adını eşitcək sorğu-sualsız bilərdi ki, ölüm mələyinin işinə qarışmaq olmaz. Qayda-qanun tanımayan Dəli Domrul isə nəinki əzrailin işinə qarışmaq hətta onunla döyüşmək qərarına gəlir: "Mərə, Əzrayil dediyiniz nə kişidir kim adamın canını alır? Ya qadir Allah, birligin varlığın haqqı üçün, Əzrayili mənim gözümə göstərgil, savaşayım, çəkişəyim, dürişəyim, yaxşı yigidin canın qurtarayım. Bir dəxi yaxşı yigidin canın almaya" [2, s.75; 1, s.176].

*2. Koroğlu dastanında trikster xüsusiyyətləri.*

"Koroğlu" dastanında triksterlər zalım hökmdarları və bəyləri aldatmaqla xalqın maraqlarını qoruyur, zəiflərin güclülər üzərində qələbəsini təmin edir, xalq müdrikliyinin daşıyıcısı kimi çıxış edirlər.

Koroğlu xalqın ən inanılan qəhrəmanı kimi tanınsa da, onun da triksterik cəhətləri mövcuddur. Zalım ağalara, bəylərə, paşalara qalib gəlmək üçün *hiylə işlədir, oyun qurur*. Onların öz hiylələrini özlərinə qarşı istifadə edir. Beləliklə, sadə xalq nümayəndələrini onların zülmündən xilas edir. Koroğlu bəzən zarafatyana, bəzən ciddi, bəzən də ironik formada sosial ədalətsizliyi ifşa edir. Bu və başqa səbəblərdən Koroğlu ən xarakterik trikster nümunəsidir. Bu cəhətdən, o, bir sıra qollarda libas dəyişməklə, gah aşıq, gah mehtər, gah da qoruqçu obrazlarına girməklə həm fiziki gücü, həm də ağlı sayəsində öz düşmənlərini məğlub etməyə nail olur.

"Otaq paşa, bəy, xan, tacirlə doludur. Eşitdilər ki, aşıq gəlib hamı sevindi... Koroğlunu çəkib məclisə apardılar. Baxdılar ki, bu aşıq heç onlar görən aşıqlardan deyil, boyu uca, kürəkləri enli, süksünü kal süksünü kimi, boynunun əti kirdin-kirdin, bığları burulub keçirilib qulaqlarının dalına, süründən sifətindən zəhm tökülür. Qorxudan üzünə baxmaq olmur. Məclisdəki paşalardan biri dedi:

– Aşıq, hara aşığısan?

Koroğlu dedi:

– Çənlibel aşığıyam.

Paşa dedi:

– Qoç Koroğlunu tanıyırsanmı?

Koroğlu dedi:

– Yaxşı tanıyıram. Bir neçə il onun yanında aşıq olmuşam.

Toqatın Paşası Mahmud Paşa dedi:

– Bu gün dəli Koroğlunun Qıratını gətirən Həmzə bəyin toyudur. Qıratı gətirdiyinə görə bəylik alıb. Dona xatunu da ona vermişəm. İndi sən də bu toyda bir az dəli Koroğludan oxu, qulaq asaq" [6, s. 180].

Bundan başqa, M.Kazımoğlunun dediyi kimi, Koroğlu triksterliyinin başqa bir tərəfi onun lazım gəldikdə, ehtiyac düşəndə meydandan qaçmağı heç də onun üçün ar deyil, bu, sadəcə, aradan çıxmaq ,can qurtarmaq deyil, düşmənlə vuruşmağın başqa bir fəndi, oyunu, hiyləsi kimi mənalanmalıdır [1, s. 220].

Mərd igidlər bir-birinə daldadı,
Çuğullar ölməyib, sağı-soldadı,
Mərd Meydandan qaçmaz, qaçsa aldadı,
Qovğa günü haçaq olar, sultanım! [5, s. 90]

Dastanın "Həmzənin Qıratı qaçırması" və ya "Koroğlunun Toqat səfəri" qolunda rast gəldiyimiz Həmzə obrazı usta kələkbazdır: o, hətta hiylə işlədib oyun qurmaqda Koroğluya tən gəlir. Həmzə yuxarıda adını çəkdiyimiz qolda gah mənfi, gah da müsbət cəhətləri ilə diqqət çəkir. Sözün əsl mənasında trikster olan Keçəl Həmzə heç vaxt igidlik göstərmir hamının gözündə qorxaq kimi görünsə də, nəinki Çənlibelə ürəklə gəlir, həmçinin Koroğlu kimi igidi aldatmağı bacarır. Bundan başqa, elə həmin qolda mənfi qəhrəman olan, yalançılıqda ad çıxaran Həmzə qolun sonunda igidlik edir, Koroğluya verdiyi sözü tutur [6].

"Koroğlu" dastanında nəinki antropomorf, hətta zoomorf triksterlərə də rast gələ bilərik. Bu triksterin ən yaxşı nümunəsi Qıratdır. O, düşmən onu tanımasın, düşmənin əlinə keçməsin deyə öz görünüşünü dəyişir. Özünü gah dəliliyə vurur, gah da xəstə at görkəminə düşür. Məsələn, "Durna Teli" qolunda Qırat qulaqlarını sallayıb, quyruğunu qısır, qəsdən axsayır, özünü xəstə görkəmə salır, onu görənlər Qəratı şilxor yabı bilib, gərəksiz olduğunu nəzərə alıb, bir qoruqçuya verirlər [5, s. 97].

**Nəticə**

Aparılan tədqiqat göstərir ki, trikster arxetipini təmsil edən personajlar Azərbaycan xalq dastanlarında mühüm yer tutur. Bu obrazlar xalqın sosial ədalət anlayışını, ağla verdiyi dəyəri və gülüş mədəniyyətini əks etdirir. Triksterlər dastanlarda yalnız komizm elementi deyil, həmçinin ciddi sosial və ideoloji funksiya daşıyıcılarıdır. Bu obrazların tədqiqata cəlb edilməsi Azərbaycan folklorunun dərin qatlarını anlamaq baxımından böyük əhəmiyyət kəsb edir.

## ƏDƏBİYYAT

1. Kazımoğlu, M. Xalq gülüşünün poetikası. Bakı: Elm, 2006, 264 s.
2. Kitabi Dədə Qorqud ensiklopediyası / 2 cilddə, I c. Bakı Yeni Nəşrlər evi, 2000, 623 s.
3. Kitabi-Dədə Qorqud. Bakı: Yeni nəşrlər evi, 1999, 704 s.
4. Kitabi Dədə Qorqud / Tərtib, transkripsiya, sadələşdirilmiş variant və müqəddimə Fərhad Zeynalov və Samət Əlizadənindir. Bakı: Yazıçı, 1988, 265 s.
5. Koroğlu / Nəşrə hazırlayan M.H.Təhmasib. Bakı: Gənclik, 1982, 328 s.

6. Koroğu / Tərtib edən: İsrafil Abbaslı və Bəhlul Abdulla. Bakı: Lider nəşriyyatı, 2005, 552 s.

7. Qafarlı R. Mifologiya. 6 clilddə. I cild. Mifogenez, rekonstruksiya, struktur, poetika. Bakı: Elm və təhsil, 2015, 454 s.

8. Qarayev.S. Mifoloji xaos: strukturu və poetikası. Bakı: Elm və təhsil, 2016, 212 s.

9. Rzasoy, S. "Dədə Qorqud" eposu. II kitab. Dastanın Alp Aruz variantının ilk bərpa təcrübəsi. Bakı: Elm və təhsil, 2024, 304 s.

*Redaksiyaya daxilolma tarixi: İlkin variant: 22.05.2026*
*Son variant: 26.05.2026*